

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 aprel 2025-ci il №25 (2934) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 10-da Türkiyəyə işgüzar səfərə gəlib.*




Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşü olub.

Söhbət zamanı Prezident İlham Əliyevlə Ersin Tatar arasında ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər, həmçinin ötən il onun Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasını qeyd edib.

Ersin Tatar dövlətimizin başçısına Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə və dəstəyə, həmçinin bir neçə gün əvvəl ADA Universitetində keçirilən beynəlxalq forumda dediyi sözlərə görə minnətdarlığını ifadə edib.

Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsi və bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

* * *

Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib.

Dövlətimizin başçısı Antalya Diplomatiya Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib.

Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.

(Ardı 2-ci səhifədə)

## Qanunvericiliyə hərbi geyim formasını daşımaq hüququ ilə bağlı dəyişiklik edilir

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilir.

AZƏRTAC xəbər verir ki, bununla bağlı qanun layihəsi Milli Məclisin aprelin 11-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib.

Qanun layihəsinə əsasən, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 164-cü maddəsinin üçüncü-beşinci hissələri müvafiq olaraq dördüncü-altıncı hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin: "Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxslər həmin geyim formasını yalnız rəsmi dəvət olunduqları Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan tədbirlərdə, ehtiyata və ya istefaya buraxıldıqları dövlət orqanının (qurumunun) əməkdaşlarının peşə bayramı günlərində, habelə "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü"ndə, "Zəfər Günü"ndə və "Azərbaycan Respublikasında Anım Günü"ndə daşıya bilərlər".

Müzakirələrdən sonra qanun layihəsi üçüncü oxunuşda təsdiqlənib.

## Azərbaycan-İtaliya hərbi pilotları arasında ekspert görüşü keçirilib



Azərbaycan Hərbi Hava Qüvvələri ilə İtaliya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, hərbi pilotların təcrübə mübadiləsi çərçivəsində ekspert görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, "Təkmil uçuş təlimi sahəsi üzrə ekspert görüşü" zamanı 4-cü və 5-ci nəsil döyüş təyyarələrinin pilotlarının təməl və təkmil səviyyəsində hazırlığı, eləcə də "Beynəlxalq təlim məktəbi" haqqında tərəflərin təqdimatları dinlənilib.

Görüşdə qarşılıqlı təcrübə mübadiləsi məqsədilə bu cür tədbirlərin keçirilməsinin əhəmiyyəti xüsusi qeyd edilib.

## "Murad Mirzəyev Salnaməsi"



Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevə həsr edilmiş kitabın təqdimatı keçirildi. Liseyin müəllimi, qızıl qələm mükafatı laureatı, yazıçı-publisist Mətanət İmamquliyevanın "Murad Mirzəyev Salnaməsi" adlı kitabın təqdimatına Milli Müdafiə Universitet rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov, Hərbi Liseyin rəhbərliyi, zabit-müəllim heyəti, kursantlar, şəhidin ailə üzvləri, döyüşçü yoldaşları, şəhid ailələri və başqa qonaqlar iştirak etdilər.

(Ardı 4-cü səhifədə)

## Azərbaycan hərbçiləri Moskvada Qələbə paradında iştirak edəcəklər

Azərbaycan hərbçiləri Moskvada keçiriləcək 9 May paradında iştirak edəcəklər.

AZƏRTAC xəbər verir ki, bunu TASS agentliyinə Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev söyləyib.

"80 nəfər Azərbaycan hərbçisi mayın 9-da Moskvada keçiriləcək paradda iştirak edəcək", - deyə diplomat qeyd edib.

Onun sözlərinə görə, yaxın vaxtlarda hərbçilər məşqlərdə iştirak etmək üçün Moskvaya gələcəklər. "Bu, bizim ümumi tarixdir, bu, bizim qələbədir", - deyə Rəhman Mustafayev vurğulayıb.

## Tarix xatırladıqca yaşadılır...



Azərbaycan qadını hər zaman cəsarəti, fədakarlığı və dözümlülüyü ilə seçilib. Tariximizdə və müasir dövrdə qadınlarımız həm öz ailəsinin, ocağının qoruyucusu, həm də Vətən üçün fədakarlıq göstərən vətəndaşdır. Tibb sahəsində xidmət edən xanımlarımız Vətən müharibəsində döyüşlərdə yaralanan oğullarımızın həyatı üçün əllərindən gələni ediblər. Bəzən döyüşlər gedə-gedə həyatını riskə atan bu xanımlar yaralı əsgərlərə ilkin tibbi yardım göstərir, bəzən bu missiyanı ağır şəraitdə, mərmilər altında da yerinə yetiriblər.

Onlar yalnız tibbi səriştələri ilə deyil, həm də ruh yüksəkliyi ilə döyüşçülərə dəstək olurdu, onlara ürək-dirək verirdilər. Yaralı hərbçilərin gözlərinə baxıb "Sən sağalacaqsan, Vətən səni gözləyir" deyərdilər, təkcə yaralarına deyil, ruhlarına da məlhəm olardılar. Onların əlləri yaraları sarıyırdı, sözləri isə qorxunu və ümidsizliyi götürürdü.

Tibb bacıları şəfqətin, səbrin, fədakarlığın canlı təcəssümüdür. Onlar hər gün həyat və ölüm arasında mübarizə aparan, xəstələrin ağrılarını yüngülləşdirən, yaralarını sarıyaraq onlara yeni bir gün bəxş edən cəsurlardır. Onların əlləri yalnız məlhəm verir, kəlmələri - ümid, inam. Bəzən bir təbəssümlə, bir təsəlli ilə xəstələrə güc verir, onları həyata bağlayırlar.

(Ardı 7-ci səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

**(Əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik edib.



Dövlətimizin başçısı deyib ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib.

Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd edib.



Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd edib.

Suriyada sabitliyin bərpası üçün əlindən gələni etdiyini deyən Əhməd Əl Şaraa bununla belə xarici amillərin bu məsələyə təsirindən narahatlığını vurğulayıb.

Görüşdə, eyni zamanda, Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunulub.

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunub.



Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət edib.

Dəvət minnətdarlıqla qəbul olunub.

* * *



Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə əvvəlcə Türkiyənin xarici işlər naziri Hakan Fidan giriş nitqi ilə çıxış edib. O, Forumun əhəmiyyətini vurğulayıb, tədbirdə çox nüfuzlu qonaqların iştirak etdiyini deyib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Türkiyə dövlətinin başçısı hazırda dünyada mövcud olan problemlərin müzakirəsinin vacibliyini vurğulayaraq, bu baxımdan Forumun roluna toxunub.

Qeyd edək ki, qlobal çağırışlarla bağlı müzakirələrin aparılması, onların həlli yollarının tapılması kimi məsələlərdə dünyanın aparıcı platformalarından biri olan Antalya Diplomatiya Forumunda 20-dən çox dövlət və hökumət başçısı, 70-dən artıq nazir olmaqla ümumilikdə 140 ölkədən 450-dək yüksəksəviyyəli nümayəndə iştirak edib.

Forum çərçivəsində müxtəlif formatlarda keçiriləcək 50-dən artıq tədbirdə Yaxın Şərqdən Asiya və Sakit okean hövzəsinə, Afrikadan Latın Amerikasına qədər geniş coğrafiyada qlobal çağırış və təhdidlərlə yanaşı, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, süni intellekt kimi dünya gündəmində mühüm yer tutan məsələlər ətrafında müzakirələr aparılacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Antalyada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.

Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluğun və strateji tərəfdaşlığın tarixi xarakter daşıdığı qeyd olunub.

Bu ilin yanvarında Azərbaycana işgüzar səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşlərini məmnunluqla xatırlayan Gürcüstanın Baş naziri həmin görüşlərdə ölkələrimiz arasında iqtisadi-ticari, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə, bununla bağlı aidiyyəti dövlət qurumlarına verilən tapşırıqların icrası istiqamətində görülən işlərə toxunub.

İrakli Kobaxidze Prezident İlham Əliyevin bir neçə gün əvvəl ADA Universitetində



beynəlxalq forumda çıxışı zamanı ikitərəfli əlaqələrimizə dair söylədiyi fikirlərin Gürcüstanda çox böyük maraqla qarşılandığını bildirib.

Dövlətimizin başçısı hazırda dünyada cərəyan edən təlatümlü şəraitdə Azərbaycan və Gürcüstanın birliyinin, həmrəyliyinin vacibliyinə toxunaraq Cənubi Qafqaz bölgəsində regional məsələlərin məhz region ölkələri tərəfindən həll olunmasının vacibliyini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan ilə görüşü olub.

Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri ölkələrimiz arasında tarixi əlaqələrin olduğunu qeyd edib. O, Azərbaycanın həm öz regionunda, həm də dünyada böyük nüfuza malik vacib ölkə olduğunu vurğulayıb.

Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan Sudanın Azərbaycanla müxtəlif sahələrdə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini dedi və ölkələrimiz arasında mədən sənayesi, neft, energetika, infrastruktur, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd edib.

Söhbət zamanı təhsil və təlim sahələrində də əməkdaşlıq məsələləri müzakirə edilib.

Prezident İlham Əliyev 2019-cu ildə Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 18-ci Zirvə görüşündə iştirakını və səfər əsnasında aparılmış müzakirələri məmnunluqla xatırlayıb. Bundan sonra Azərbaycanla Sudan arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb.

Görüşdə iki ölkə arasında münasibətlərin genişləndirilməsi üçün iqtisadi təyinatlı nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil edilməsi məsələlərinə dair fikir mübadiləsi aparılıb, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq qeyd olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi polisin yaranmasının 33-cü ildönümü qeyd olundu







*Müdafiə Nazirliyi Hərbi Polis İdarəsinin yarandığı gündən 33 il keçir. Arxada qalmış bu illər ərzində çətin və şərəfli xidmət yolu keçən Hərbi Polis İdarəsi müdafiə nazirinin 1992-ci il tarixli müvafiq əmrinə əsasən yaradılmışdır. Əlamətdar gün münasibətilə Hərbi Polis İdarəsində tədbir keçirildi.*



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin idarənin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyularaq xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirildi.

Daha sonra Ulu Öndərin, eləcə də Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə ünvanladığı təbrik məktubu oxundu.

Tədbirdə çıxış edən Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsinin rəisi general-mayor Azər İbrahimov hərbi polis bölmələrinin xüsusilə işğaldan azad edilmiş ərazilərdəki yaşayış məntəqələri və qoşunların dislokasiya yerlərində xidməti fəaliyyətinin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən müsbət qiymətləndirildiyini qeyd etdi. Baş İdarə rəisi hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzuladı.

Hərbi Polis İdarəsinin zabiti polkovnik Mirhəmid Nağıyev çıxış edərək, hərbi polisin fəaliyyətə başladığı gündən çətin, şərəfli xidmət və döyüş yolu keçməsindən söz açdı. "Hərbi Polis İdarəsi və tabeliyində olan hərbi polis bölmələrinin fəaliyyətinin əsasını sülh və müharibə dövründə Azərbaycan Ordusunda, qarnizonlarda hərbi intizamın səviyyəsinin qorunub saxlanılması, hərbi geyim formasının daşınması qaydalarına riayət edilməsi, komendant xidmətlərinin, patrul xidmətinin təşkili, qoşun xidməti, hərbi avtomobil texnikalarının müşayiəti, axtarış fəaliyyəti təşkil edir. İşğaldan azad olunmuş torpaqlarımızda Hərbi Polisin əməkdaşları mətinliklə xidmət edirlər. Onlar Vətən müharibəsində də qələbənin təmin edilməsində üzərlərinə düşən tapşırıqları uğurla yerinə yetiriblər. Torpaqlarımız işğaldan azad olunduqca mühüm əhəmiyyətli obyektlər dərhal mühafizəyə götürülüb, komendant postları qurulub, mənfur düşmənin qoyub qaçdığı silah və texnikalar ərazilərdən yığılaraq aidiyyəti üzrə təhvil verilib. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin və yaralıların təxliyə edilməsində də iştirak etmişlər. Vətən müharibəsindən sonra da Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı sayəsində Azərbaycan Ordusunda xidmətin yüksək səviyyədə təşkili məqsədilə müxtəlif bölgələrdə yerləşən Hərbi Polis bölmələrinin inzibati binaları müasir standartlara



uyğun olan yenidən tikilib. Hərbi Avtomobil Müfəttişliyi xidmətinin səmərəli fəaliyyətinin təşkili üçün yeni avtomobillər alınaraq xidməti istifadəyə verilib. Şəxsi heyətin fiziki hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə müasir idman zalı yaradılıb. Hərbi Polisin şəxsi heyəti Azərbaycan Ordusunun bir hissəsi kimi ərazi bütövlüyümüzün qorunmasında, hərbi intizamın gücləndirilməsində daim mətinliklə xidmət edəcəkdir", - M.Nağıyev dedi.

Çıxışlardan sonra tədbir iştirakçılarına hərbi polisin yaranma tarixi və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirildi.

Sonda komendant və qoşun xidmətinin təşkilində fərqlənən bir qrup hərbi qulluqçu təltif olundu.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

## "Xəzri-2025" birgə taktiki təliminin planlaşdırma konfransı keçirilib



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə cari ildə keçiriləcək "Xəzri-2025" birgə taktiki təliminin planlaşdırma konfransı olub.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə Qazaxıstan Respublikasının Dəniz Qüvvələri Baş Komandanının birinci müavini - Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin Baş Qərargah rəisi 1-ci dərəcəli kapitan Kanat Niyazbəyov və Azərbaycan Hərbi Dəniz Qüvvələri komandanının birinci müavini - qərargah rəisi 1-ci dərəcəli kapitan Teymur Mürşüdovun rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.

Görüşün sonunda Xəzər dənizinin Qazaxıstan Respublikasına məxsus ərazi sektorunda keçiriləcək birgə taktiki təlimə aid konfransın yekun protokolu imzalanıb.

Qeyd edək ki, təlimin məqsədi Azərbaycan və Qazaxıstan hərbi dənizçilərinin peşəkarlıqlarının daha da artırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.





## Mövqelərimiz atəşə tutulub

Aprelin 9-u saat 23:50 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsüskənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyi xəbər verir ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Aprelin 10-u saat 20:55-də Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Seyrək Meşə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

(Əvvəli 1-ci səhifədə)

# "Murad Mirzəyev Salnaməsi"



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş xalqımızın qəhrəman oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış edən general-mayor Arif Həsənov qəhrəmanın valideynlərini, qonaqları və tədbir iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından salamladı. Azərbaycanın sadə bir kəndində, Muğan-Gəncəlidə anadan olan, qırx ildən sonra isə doğma kəndini respublikamızda tanıdan Murad Mirzəyev haqqında hələ çox salnamələrin yazılacağını qeyd etdi. "Aprel döyüşləri İkinci Qarabağ müharibəsinin başlanğıcı oldu. Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin döyüşlərdə göstərdiyi şücaət haqqında döyüşçü yoldaşlardan tez-tez eşitmişik. Onun bu qəhrəmanlığı gənc nəsil üçün böyük örnəkdi", - dedi general-mayor A.Həsənov.

Milli Müdafiə Universitet rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru daha sonra şəhidimizin əziz xatirəsinə həsr olunan "Murad Mirzəyev Salnaməsi" kitabının müəllifi Mətanət İmamquliyevaya vətənpərvərliyin təbliğindəki fəaliyyətinə görə Milli Müdafiə Universitet rektoru general-mayor Gündüz Əbdülovun adından təşəkkür etdi.

Milli Qəhrəmanın atası Telman Mirzəyev çıxış edərək oğlu ilə fəxr etdiyini bildirdi: "Zala daxil olduqda oğlum gözümdə canlandı. O, burada təhsil alıb. Hər zaman Vətənə, xalqına bağlı biri olub. Bu kitab şəhid Murad Mirzəyev haqqında yazılan 14-cü kitabdır. Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin hər zaman əziz tutulduğuna, göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı, kitabın ərsəyə gəlməsində əməyi keçən hər bir kəsə təşəkkürümü bildirirəm".



Digər çıxış edənlər də, şəhidin həyat və xidmət yolundan, onun vətənpərvərliyindən, 2016-cı ilin Aprel döyüşləri, eləcə də 2020-ci ilin Vətən müharibəsi zamanı erməni işğalçılarının cəbhədə törətdikləri təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan danışdılar.

Qeyd olundu ki, şəhid polkovnik-leytenant Murad Telman oğlu Mirzəyev 31 mart 1976-cı ildə Sabirabad rayonun Muğan-Gəncəli kəndində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən sonra qardaş Türkiyə Respublikasının Quru Qoşunları Ali Hərbi Məktəbində oxuyub. Murad Mirzəyev 2016-cı ildə hərb tariximizə Aprel döyüşləri kimi daxil olmuş 4 günlük müharibənin şəhid qəhrəmanlarından biridir. O, komandiri olduğu qrupla birlikdə yüzlərlə düşmən hərbçisini Talış kəndi ətrafında məhv edib, cəsur komandir qeyri-bərabər döyüşdə tutduğu mövqedən bir addım belə geri çəkilməyib.

Şəhidin döyüş yoldaşı, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov Aprel döyüşləri zamanı M.Mirzəyevlə çiyin-çiyinə döyüşdüyünü, onun döyüş zamanı bir addım belə geriyə çəkilmədiyini bildirdi. "O, döyüşçü kimi hər birimizə örnək olub. İkinci Qarabağ müharibəsi başlayanda ilk atılan mərmi, güllə səsini eşidəndə elə bilirdim Aprel döyüşləri hələ davam edir. Sanki, bir vaxtlar komandirim olan Murad Mirzəyev hələ də bizimlə idi. 44 gün davam edən və Ordumuzun Zəfəri ilə başa çatan müharibədə Murad Mirzəyevin timsalında bütün şəhidlərimizin qisası alındı", - dedi Zaur Hüseynov.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev, Qarabağ Ordenli polkovnik Rəşad Aslanov, Şəhid ailələri və qadınlarla iş üzrə sektor müdiri Zümrüd Səmədova, Muğan-Gəncəli kənd orta məktəbin direktoru Afiq Quliyev və başqaları çıxış edərək Milli Qəhrəman Murad Mirzəyev haqqında xatirələrini bölüşdülər.

Çıxışlardan sonra Milli Qəhrəman Murad Mirzəyevin foto şəkilləri əsasında hazırlanmış qısa metrajlı film nümayiş olundu.

Sonra general-mayor Arif Həsənov "Murad Mirzəyev Salnaməsi" kitabı Şəhidin valideynlərinə təqdim etdi.

Sonda tədbir iştirakçıları Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərin ifasında vətənpərvərlik mahnıları dinlədilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



## *Ordenli igidlərimiz*

# "Tarixi zəfərdə kiçik də olsa əməyimin olduğunu bilmək qürurverici hissdir"



*Azərbaycan Ordusunun düşmənin genişmiqyaslı təxribatının qarşısını alaraq əks-hücum əməliyyatına keçməsi ilə başlayan və şanlı qələbə ilə yekunlaşan Vətən müharibəsindən artıq bir neçə il ötüb. Əlbəttə, bu tarixi qələbəni xalqımıza yaşadan igid döyüşçülərimiz olub. Yüksək döyüş hazırlığına malik peşəkar hərbçilərimiz qorxu bilmədən irəliləyərək torpaqlarımızı işğaldan azad ediblər. Döyüşlərin qələbə ilə nəticələnməsində digər qoşun növləri kimi artilleriya bölmələrinin fəaliyyətinin də əvəzsiz təsiri oldu. Döyüş əməliyyatları zamanı onların dəqiq artilleriya atəşləri nəticəsində düşmənin illərlə möhkəmlətdiyi istehkam sədləri darmadağın edildi. Xeyli sayda döyüş maşınları və texnikaları, komanda məntəqələri artilleriyaçılarımızın dəqiq atışları ilə məhv edildi. Bir sözlə, İkinci Qarabağ müharibəsində düşmən qüvvələrinin məhv edilməsində, eləcə də qarşı tərəfin əks-həmlə tətbiq edə bilməməsində hərbi bilik və bacarıqları ilə artilleriyaçılarımızın böyük rolu oldu.*

Şücaətilə Vətən müharibəsində fərqlənən artilleriyaçı-hərbçilərimizdən biri olan "Qarabağ" ordenli baş leytenant Məhəmməd Qaraşov ilə tanış olduq. Mingəçevir şəhərində dünyaya göz açan gənc zabit 2011-ci ildən hərbçi olmaq arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi liseyin qəbul imtahanında iştirak edib. Müvəffəqiyyətlə liseyi bitirdikdən sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. Artileriya ixtisası üzrə hərbi təhsil alan M.Qaraşov 2018-ci ildən şərəfli peşənin sahibi olaraq xidmətə başladığı ilk gündən zabit olaraq tabeliyində olan hərbi qulluqçuları bütün gücü və iradəsi ilə peşəkar bir döyüşçü kimi yetişdirməyə çalışıb. O, əsgərlərin döyüş qabiliyyətini və ruhunu, fiziki, atəş, eləcə də, mənəvi-psixoloji hazırlıqlarını artırmaları üçün əlindən gələni əsirgəmir. Şəxsi heyətə həm qardaş, həm də komandir olur. Gənc zabitin peşəkarlığı sayəsində əsgərlərimiz artilleriyanın sirlərinə yiyələnirlər.

"Bizim əsas vəzifəmiz əsgərlərimizi istənilən döyüş tapşırığının öhdəsindən gələ biləcək peşəkar döyüşçülər kimi hazırlamaqdır. Onların fiziki, mənəvi-psixoloji, praktiki hazırlıqlı olmalarını daim diqqət mərkəzində saxlayırıq. Komandir və müəllimlərimizdən öyrəndiklərimizi biz də onlara öyrədirik. Çünki, bügün hərbin sirlərini öyrətdiyimiz hər bir əsgər lazım gələrsə döyüş meydanında çiyin-çiyinə döyüşəcəyimiz igidlər olacaqlar. Belə ki, həm Vətən müharibəsində, həm də müharibədən sonrakı əməliyyatlarda əsgərlərərimiz verilən tapşırıqları yüksək peşəkarlıqla icra etdilər", - dedi M.Qaraşov.

"Hər bir hərbçinin arzusu olduğu kimi mən də torpaqlarımızın azadlığı uğrunda gedən Vətən müharibəsinin, eləcə də Qarabağ İqtisadi zonasında keçirilən antiterror əməliyyatlarının iştirakçısı olduğum üçün sevinirəm", - deyə zabit sözünə davam edir. "Keçirdiyim hissi adi sözlərlə ifadə etmək mümkün deyil. Döyüşlərin başladığı ilk gündən ard-arda bölmələrimizin uğurlarını eşitmək bizdə böyük ruh yüksəkliyi yaradırdı. İgid oğullarımızın əzmkarlığı ilə qısa zamanda otuz ilə yaxın həsrətini çəkdiyimiz torpaqlarda şanlı bayrağımız dalğalandırıldı. Bu gün illərdir səngərlərdən həsrətlə baxdığımız torpaqlarımızda xidmət edirik.

Döyüşlərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə layiq görüldüyüm "Qarabağ" ordeninə, "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına baxdıqca keçdiyimiz döyüş yolu gözümdə canlanır. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuzun qazandığı tarixi zəfərdə kiçik də olsa əməyimin olduğunu bilmək qürurverici hissdir".

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Döyüş hazırlığı

# “Təlimlər, məşğələlər şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsini təmin edir”

*Yaz fəslidi. Həzin-həzin yel əsir. Elə bil əsən yellər ağacların yarpaqlarının titrəyişini nizamlayır - baxırsan, düşünürsən: Yarpaqların titrəyişi nizama düşür, dünya da nizama düşməlidi. Ermənistan Cənubi Qafqazda nizamı pozmuşdu, tarixi ədaləti Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan Ordusu bərpa etdi.*



Yüksək döyüş hazırlıqlı ordumuzun bütün bölmələri kimi, artilleriyaçılarımız da İkinci Qarabağ müharibəsində xüsusi şücaətlər göstərdilər. Bu şücaət mövqe qələbələri idi, strateji əhəmiyyətli yüksəkliklərin azad edilməsi idi, legitim hədəflərin məhv edilməsi idi.

Hərbi hissəyə bu düşüncələrlə çatmışıq. Bayaqdan bəri əsən yellər dayanıb... Zabit Rüstəm Nəbiyevlə təbiətin gözlənilməzliklərini də xatırlamışıq, gerçəkliklərini də. Belə havalarda təlimlərin daha rəvan keçirildiyini xatırladan zabit deyir ki, hərbi qulluqçu üçün ən gözəl fəsil hərbi xidmət fəslidi - hərbi xidmətdə bütün fəsillər gözəldi.

Bu gözəlliyi hərbi xidmətə münasibət daha da gözəlləşdirir. Bir azdan taktiki raket sisteminin döyüş hazırlığı məşğələsi başlayacaq. Belə məşğələlər təlimdir, təlim-tədris prosesidir. Məşğələdə öyrənilmişlər bir daha xatırladılır, təkrar olunur, mərhələlər ardıcıllıqla yerinə yetirilir; heyət dərs-tədris prosesində olur...

Baş leytenant Məhəmməd Qaraşov təlimlə bağlı gərəkli olan bilgiləri bir daha heyətə xatırladır. Xatırlatma mahiyyəti baxımından öyrətmədi... Məşğələ başlayır. Nəzəri biliklərin mənimsənildiyinə əminlik heyət üzvlərinin vəzifə borclarını əvvəl ayrılıqda, sonra vəhdətdə - məşğələ formatında tamlıqla icrası ilə davam etdirilir.



Gizir Arzu Camıyev bildirir ki, heyəti olduğu taktiki raket sistemi İkinci Qarabağ müharibəsində döyüşən ordunun qələbə qazanmasında, nəticə etibarilə tarixi zəfərdə əhəmiyyətli olub. “Azərbaycanın ədalətli müharibəsində - İkinci Qarabağ müharibəsində bütün qoşun növləri qətiyyətlə döyüşdü, qoşunlar arasında hərb elminin tələbləri səviyyəsində koordinasiya vardı. Artilleriyaçılarımız da döyüşlərin gedişində bu baxımdan yüksək döyüş hazırlığı ilə fərqləndilər”. Heyət üzvləri giziri qürurla dinləyirlər. Artilleriyaçı, bu raket sisteminin heyəti olmalarıyla qürurlanırlar.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elçin Cəbiyev deyir ki, biz hər məşğələdə gerçək döyüş ovqatı ilə iştirak edirik. “Buna yüksək döyüş hazırlığımız imkan verir. Baş leytenant Məhəmməd Qaraşov Vətən müharibəsi iştirakçısıdı. Ərazi bütövlüyümüzün tam bərpa olunması ilə nəticələnmiş Qarabağ iqtisadi zonasında həyata keçirilən antiterror əməliyyatında da iştirak edib. Onun döyüş təəssüratları hər birimiz üçün döyüş dərsliyidir”.



Onun fikirlərini zabit Rüstəm Nəbiyev tamamlayır: "Vəzifə borclarını məsuliyyətlə yerinə yetirən hərbi qulluqçu bunu böyük sevgilərlə icra etməlidir. Döyüş hazırlığı məhz bu amildən asılıdır. Təlimlər, məşğələlər şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsini təmin edir. Belə xatırlatmalar onların döyüş hazırlığını tamamlayan mənəvi hazırlığını yüksəldir. Məşğələlər bu baxımdan mənəvi hazırlıqda vasitə hesab olunur. Füzuli istiqamətində düşmənin mühəndis-istehkam səddinin yarılmasında bu sistemdən dəqiq atışlar qələbələr qazandırdı, nəticə etibarilə torpaqlarımız işğaldan azad olundu....", - mayor Rüstəm Nəbiyev belə deyir.

Bu fikirləri həm artilleriyaya ehtiram bilirik, həm bu raket sisteminə, həm də şəxsi heyətin yüksək döyüş hazırlığına...

Əsən yellərin çılğınlığı azalıb...

Məşğələ başa çatır.

Şəxsi heyətin gözlərində qüruru, duruşlarında mətinliyi görməmək çətin deyil. Bu baxışlardan "Biz artilleriyaçıyıq!" - qürur ilə bir sırada "Sabah nəfəsimizlə yenə isinəcəksən...", - kəlmələrini oxumaq çətin deyil...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## XİN: AŞPA prezidentinin Azərbaycan əleyhinə iddialarını qətiyyətlə rədd edirik

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Teodoros Rusopulosun "Alpha News" qəzetinə müsahibəsi zamanı Azərbaycan əleyhinə səsləndirdiyi iddiaları qətiyyətlə rədd edir və pisləyirik.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa Şurası Parlament Assambleyasının prezidenti Teodoros Rusopulosun Azərbaycan əleyhinə qəbuledilməz fikirlərinə dair şərhində bildirib.

Ayxan Hacızadə deyib: "Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində Azərbaycan əleyhinə addımdan sonra belə, Azərbaycan tərəfinin dialoqa açıqlığını nümayiş etdirməsinə baxmayaraq, Rusopulos, Şvabe və onlar kimi bir sıra şəxslərin davamlı şəkildə ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salmağa çalışdıqları məlumdur.

AŞPA bu illər ərzində ikili standartlar əsasında apardığı anti-Azərbaycan siyasəti ilə Azərbaycan xalqının haqlı nifrətini qazanıb.

Ölkəmizin rəhbərini təhqir etmək, "diktator" adlandırmaq isə ümumiyyətlə heç bir çərçivəyə sığmır, siyasi mədəniyyətsizlik və nadanlıqdır. Assambleyada hazırkı isterik vəziyyət və onun başında duran diktator Rusopulos AŞPA-dakı acınacaqlı vəziyyətin təzahürüdür. Eyni vəziyyət, Avropa Parlamentində də mövcuddur.

Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları ilə bağlı mövqeyimizə gəldikdə, Azərbaycanın məhkəmənin hakimlərinin seçimlərində iştirak etmədiyi nəzərə alınmaqla, onların qəbul etdiyi qərarların Azərbaycan tərəfindən icra olunmasını tələb etmək absurddur. Bu şəraitdə, məhkəmənin qərarlarının yerinə yetirilməsi mümkün deyil.

Qeyd edək ki, AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və hüquqi cəhətdən suallar doğuran təşəbbüsü dəstəkləyən 76 nəfər AŞPA üzvü kimi, Teodoros Rusopulosun da adı qara siyahıya daxil edilib. Rusopulos Azərbaycana soxularsa, rədd ediləcəkdir".

## **Fuad Oktay:** Kimsə ATƏT-in Minsk qrupunu oyandırıb, onlara problemin bitdiyini deməlidir

Türkiyə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsində eyni mövqeyindədir. Biz, ilk növbədə, bölgədə sabitliyi, buna bağlı olaraq Ermənistanla Azərbaycan arasındakı sülh müqaviləsinin ən qısa vaxt ərzində imzalanmasını arzu edirik. Əsas arzumuz bölgədə sülhün bərqərar olunmasıdır. Artıq hamımız böhranlardan, münaqişələrdən yorulmuşuq. Regionumuzun inkişafa çox böyük ehtiyacı vardır.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay bildirib.

Qafqazda sülhün bərqərar olunması istiqamətində atılması gözlənilən addımların artıq hər kəsə bəlli olduğunu qeyd edən Fuat Oktay deyib: "Qafqazda sülh və sabitlik üçün Ermənistan konstitusiyasında dəyişilməsi vacib olan maddələr var. Bu məsələdə, həmçinin ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyini də vurğulamaq lazımdır. Onlar hələ də "bu münaqişə bitərsə, biz işsiz qalarıq" düşüncəsindədirlər. Halbuki birinin onları oyandırması, artıq problemin öz həllini tapdığını bildirməsi lazımdır. Qərbi azərbaycanlıların öz torpaqlarına qayıtması da əsas məsələlərdəndir. Bu problem öz həllini yalnız sülh yolu ilə tapa bilər".

## Görkəmli şəxsiyyətlər

# Qafqazın müsəlman əhalisindən Rusiyada ilk ali hərbi təhsil alan azərbaycanlı - general-leytenant Balakişi bəy Ərəblinski



***Balakişi bəy Ərəblinski 1828-ci ildə Zaqatala mahalının Tala kəndində Mahal naibi Əli bəyin ailəsində anadan olub. Hərbi təhsilini Peterburqdakı birinci dərəcəli kadet korpusunda alan Balakişi bəy 1848-ci ildə buranı müvəffəqiyyətlə bitirərək "kornet" rütbəsi alıb. O, Qafqazın müsəlman əhalisindən Rusiyada ilk ali hərbi təhsil alan azərbaycanlı olub.***

Xidmət illərində müxtəlif hərbi hissələrdə qüsursuz xidmət edən B.Ərəblinski gənc yaşlarında podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə təyin olunub. Sonralar diviziya komandiri olan general-leytenant Balakişi Ərəblinski 50 illik xidməti dövründə o vaxt Rusiyada baş verən bütün yürüş və döyüşlərdə iştirak edib.

1848-49-cu illərdə Vilaqoş qalası uğrunda gedən şiddətli döyüşlərdə kapitan rütbəsində olan B.Ərəblinski cəsarətlə vuruşduğuna və göstərdiyi igidliklərə görə birinci dərəcəli "Müqəddəs Stanislav" ordeninə layiq görülüb.

1853-56-cı illərdə Krım müharibəsində döyüşən minlərlə azərbaycanlılardan biri də Balakişi Ərəblinski olub. Bu döyüşlərdə podpolkovnik B.Ərəblinski xüsusilə fərqləndiyinə görə üstü yazılı qılınc və "Müqəddəs Anna" ordeni ilə təltif olunub.

Balakişi Ərəblinskinin iştirak etdiyi daha bir müharibə 1877-1878-ci illərdə baş verən Rusiya-Osmanlı müharibəsi olub. Qısamüddətli döyüşdə göstərdiyi qeyri-adi igidliyə və çox yüksək komandirlik bacarıqlarına görə Balakişi Ərəblinski "general-mayor" rütbəsinə yüksəlib.

B.Ərəblinski xidməti müddətində qüsursuz xidmətlərinə və döyüşlərdə göstərdiyi rəşadətlərə görə Çar İmperiyasının müxtəlif orden və medalları ilə, qızıl silahla, həmçinin Buxara əmiri tərəfindən birinci dərəcəli "Ucalan Ulduz" qızıl ordeni ilə mükafatlandırılıb.

1896-cı ildə istefaya çıxan general-leytenant Balakişi Ərəblinski Dərbəndə qayıdıb, ömrünün sonunadək orada yaşayıb. İmperator tərəfindən ona hədiyyə olunan torpaq sahəsinə və təsərrüfata başçılıq edib. Yüksək insani keyfiyyətləri ilə yerli əhali arasındakı hədsiz hörmət və nüfuza sahib olub. Dərbənd yaxınlığındakı kənd və stansiya general-leytenant Balakişi Ərəblinskinin adını daşıyır.

Balakişi bəy Ərəblinskinin iki qızı olub - Nurcahan xanım və Sona xanım. Kiçik qızı Sona xanım məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı olub.

Ərəblinskilər nəslindən bir neçə hərbçi yetişib - podpolkovnik Həmzalov Ərəblinski, onun oğlu podpolkovnik Əli bəy Ərəblinski, hal-hazırda Azərbaycan Ordusunda xidmətdə olan polkovnik Şərif Ərəblinski.

General-leytenant Balakişi Ərəblinski 1902-ci ilin yanvarında vəfat edib və Dərbəndin qədim müsəlman qəbiristanlığında əsgəri şərəflə dəfn olunub.

**"Azərbaycan Ordusu"**

## Gənc zabitlərimiz

# "Zəfər təəssüratlarım unudulmazdır"



***Kapitan Mansur Sədrəddinov ordumuzun vətənpərvər, peşəkar zabitlərindən biridir. Hərb peşəsini ürəyindən gələn arzu ilə seçdiyini söyləyən Mansur zabit olmağı, Vətənin keşiyində dayanmağı özünün müqəddəs və şərəfli borcu bilib. Hərbi təhsilini indiki Heydər Əliyev adına Hərbi İnstitutda alıb. Təcrübəli zabitlərdən, savadlı müəllimlərdən aldığı zəngin hərbi biliklər onu seçdiyi müqəddəs və şərəfli peşəyə daha da dərindən bağlayıb. Hərbi təhsilini rabitə ixtisası üzrə bitirib. İxtisası barədə geniş bilgilər alan və bu sahədə təcrübəsini daim artıran Mansur Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində qoşunların rabitə təminatı zamanı döyüş tapşırığını layiqincə yerinə yetirib.***

İkinci Qarabağ müharibəsində ordumuzun qazandığı qələbələrdən danışan kapitan M.Sədrəddinov torpaqlarımızın azadlığı uğrunda onların xatirəsinin həmişə əziz tutulacağını, onların qanı bahasına azad edilmiş şəhər, rayon, kəndlərimizdə adlarının əbədiləşdiriləcəyini dedi: "Müharibənin Qələbə ilə başa çatması xəbəri heç vaxt yaddaşımdan silinməyəcək. Böyük Zəfərin qürurunu yaşadığımız anlar heç unudularmı? Torpaqlarımız kənd-kənd azad olunurdu. Düşmənin illərlə qurduğu istehkam sədləri, işğal etdiyi ərazilərimizdə yerləşdirilmiş hərbi birləşmələri ordumuzun gücü, qəhrəman, igid döyüşçülərimizin sayəsində darmadağın edildi. Ordumuzun gənc zabiti olaraq, bu şanlı tarixi dönəmi yaşamaq, qəhrəmanlıqlara şahid olmaq, azad olunmuş ərazilərimizdə üçrəngli bayrağımızın sancıldığını görmək, əlbəttə, qürurvericidir.

Hərbi təhsilimi 2013-2017-ci illərdə almışam. Kursant yoldaşlarımla birlikdə Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızın azadlığı uğrunda şərəfli missiyanı yerinə yetirmək üçün Hərbi And içmişdik. Erməni hərbi birləşmələri cəbhə xəttində genişmiqyaslı təxribatlar törədirdi. Azərbaycan Ordusu düşmənin bu təxribatlarına qarşı 27 sentyabr 2020-ci ildə bütün cəbhə boyu əks-hücum əməliyyatına başladı. Ordumuzun vətənpərvər, peşəkar zabitləri sırasında biz də Hərbi Anda sadiq qalaraq, Müzəffər Ali Baş Komandanın müqəddəs döyüş əmrini Vətən müharibəsində şərəflə yerinə yetirdik. Müasir döyüş bacarığına malik Azərbaycan Ordusunun vətənsevər hərbi qulluqçuları ölümün gözünə dik baxdılar, düşmənin üzərinə qartaltək şığıdılar. Beş il öncə qəhrəman Azərbaycan oğulları Vətənin şanlı tarixinə qürur dolu səhifələr yazdılar. Erməni vandalları tərəfindən dağıdılmış, viran qoyulmuş ərazilərimizdə yeni binalar ucalır, infrastruktur qurulur. Qədim Şuşamız, yanmış, külə dönmüş Xocalımız da artıq dirçəlib".

"Zəfərdən təəssüratlarım unudulmazdır", - deyən kapitan M.Sədrəddinov onu da bildirdi ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan islahatlar nəticəsində ölkəmizin müdafiə qabiliyyəti daha da güclənib. "Qalibiyyət bayrağını başı üzərində əzəmətlə dalğalandıran, respublikamızın müdafiəsinin təminatçısı olan Azərbaycan Ordusunun zabiti adını daşımaq şərəfdir. Döyüşlərdə qələbə qazanmış, uğurlu əməliyyatlar həyata keçirmiş ordumuzun bölmələri indi işğaldan azad olunmuş ərazilərimizdə - çətin coğrafi relyefli mövqelərimizdə Vətənimizin keşiyini çəkir".

Mansurun sinəsini "Füzulinin azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları bəzəyir. Əminik ki, bu medallar onun xidmət yoluna işıq salacaq və o şərəfli zabit adını daim uca tutacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# Məsuliyyətli sürücü



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Orxan İmanov on ilə yaxındır ki, sürücü kimi xidmət edir. O, hərbi xidmət dövründə müxtəlif avtomobilləri; minik, yük, döyüş maşınlarını idarə edib. Ona təhkim edilən maşına şəxsi avtomobili kimi sevgi ilə baxıb və qulluq göstərib. Orxanın idarə etdiyi avtomobil həmişə çıxışa hazır vəziyyətdə olub. Çavuş Orxan İmanov deyir ki, hər dəfə çıxışdan qayıdandan sonra avtomobilin texniki vəziyyətini yoxlayır. Çavuş Orxan İmanova təhkim edilmiş avtomobil döyüş vaxtı komanda məntəqəsini rabitə vasitəsilə idarə edən zirehli texnikadır. Dağlıq-meşəlik, düzən ərazilərdə döyüşü idarə etmək üçün müasir rabitə avadanlıqları ilə təchiz edilmiş bu maşının sürücüsü də məsuliyyətli olmalıdır.

Orxanla söhbətimiz səhər avtomobil parkında baş tutdu. Sürücü deyir ki, ona təhkim edilmiş komanda idarəetmə avtomobilini idarə etməyin də özünəməxsus tələbləri var. Bu maşını sürmək həm də məsuliyyət tələb edir. İkinci Qarabağ müharibəsi zamanı bölmələr döyüş xəttinə açılaraq geniş bir ərazini əhatə edirdi. Bölmələrə döyüş tapşırıqları idarəetmə məntəqəsindən, yəni, idarə etdiyim avtomobildən verilirdi. Düşmənin ən çox məhv etmək üçün seçdiyi hədəf bu maşın idi. Çünki döyüş vaxtı düşmən istəyir ki, idarəetmə itsin və döyüş uğursuz olsun. Rabitə vasitələrimizi susdurmaq üçün bütün vasitələrdən istifadə edirdilər ki, dəqiq idarəetmə baş tutmasın. Bunun üçün sürücü də məsuliyyət daşıyır. Düşmənin bütün cəhdlərinə baxmayaraq, avtomobili əraziyə uyğun maskalayıb, təhlükəsiz ərazilərdə idarə edib. Bu səbəbdən də bölmələrin həyata keçirdiyi bütün tapşırıqlar uğurla icra edilib. Orxan Lənkəran rayonunun Liman şəhərində anadan olub. Atası Kərim İmanov Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Onlar iki qardaşdırlar. Elvin də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur. Qardaşlar kiçik yaşlarından atalarının keçdiyi döyüş yolu ilə bağlı xatirələri çox eşidiblər. Kərim kişi övladlarında da hərbi xidmətə maraq oyadıb. Hər iki qardaş Qarabağ müharibəsi iştirakçısıdır.

Çavuş Orxan İmanov döyüşlərdəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Qələbənin 80 illiyi ərəfəsində naməlum qəhrəmanların adları əbədiləşdirilməlidir



*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələrinin Veteranları Təşkilatı İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ərəfəsində keçmiş SSRİ şəhərlərinin müdafiəsində və yaşayış məntəqələrinin faşist işğalçılarından azad edilməsində qəhrəmanlıq göstərən həmvətənlərimizin xatirələrinin əbədiləşdirilməsi təşəbbüsü ilə çıxış edib. Qəhrəmanlar yaddaşlarda yaşayanda, adları mədəniyyətə, ölkənin salnaməsinə uyğun gələndə ölmürlər. Belə ki, Həzi Aslanovun, İsrafil Məmmədovun, Mehdi Hüseynzadənin, Mirzə Cabiyevin və bir çox başqalarının şücaətləri yaxşı məlumdur və indi ağızdan-ağıza ötürülür. Bizim vəzifəmiz naməlum qəhrəmanların adlarını tapmaq, onlar haqqında məlumat verməkdir. Respublika Veteranlar Təşkilatı bu ideyanın həyata keçirilməsini öz müqəddəs vəzifəsi hesab edir.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov deyib.

İkinci Dünya müharibəsində 27 milyondan çox sovet vətəndaşının öldüyünü diqqətə çatdıran C.Xəlilov bildirib ki, bəşəriyyəti faşizmdən xilas edən bu insanların qəhrəmanlığı daim xatırlanmalıyıq: "İkinci Dünya müharibəsi cəbhələrində 700 minə yaxın azərbaycanlı döyüşüb, onların yarısı döyüş meydanlarından qayıtmayıb. Müharibədə altı Azərbaycan diviziyası iştirak edib, onlardan beşinin tərkibi 95 faiz Azərbaycanın yerli sakinlərindən təşkil olunub. 416-cı Taqanroq diviziyası Berlinə qədər gedib. 77-ci diviziya Ukrayna, Kerç, Sevastopolun azad edilməsində iştirak edib.

Azərbaycanlılar cəbhələrdə ləyaqətlə vuruşublar. Onlardan 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 17 nəfər "Şöhrət" ordeninin tam kavaleri olub. Bəzilərinin xatirəsi əbədiləşdirilib. Məsələn, Volqoqradda, Belarusda Həzi Aslanovun abidələri ucaldılıb. Kalininqradda küçələrdən birinə Mirzə Cabiyevin adı verilib. Kişinyovda Moldova ərazisində müharibə zamanı qəhrəmancasına həlak olmuş 300-dən çox azərbaycanlının adları olan mərmər lövhə quraşdırılıb.

Ancaq azərbaycanlıların bir çox qəhrəmanları haqqında məlumat yoxdur. İstərdim ki, Qələbənin 80 illiyi ərəfəsində onların adları aydınlaşdırılsın və əbədiləşdirilsin. Bu, faşizmlə mübarizə aparan insanların xatirəsinin bu gün də xatırlandığını sübut edəcək.

Qəhrəman cəsarəti, şücaəti ilə seçilən, tez-tez həyatının bahasına uğur qazanan bir insandır. Qəhrəman insan yaxınlarının, qohumlarının, bütövlükdə ölkənin rifahı naminə özünü qorumağın təbii instinktini dəf etməyə imkan verən son dərəcə güclü bir iradəyə malikdir. Həqiqətən, bəşəriyyət üçün həyatın mənası varlığı sonsuzluğa qədər uzatmaqdırsa, bir insan üçün öz ömrünü mümkün qədər uzatmaqdır. Qəhrəman bu barədə düşünmür. Nəsillərin yaddaşı sayəsində ölümsüzlüyə çatır. Xalq yaddaşı qəhrəmanı gələcək nəsillərə, əbədiyyətə bağlayan körpü rolunu oynayır. Bu, qəhrəmanı uca Allahın ona verdiyi fərdi vaxtın gücündən azad edir. Beləliklə, Vətənin müdafiəsinə xüsusi töhfə verən insanlar ölməz olurlar".

Polkovnik bildirib ki, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı hesab edir ki, keçmiş SSRİ-nin şəhər, qəsəbə, kəndlərində Sovet İttifaqı Qəhrəmanı adını almış və ya "Şöhrət" ordeninin tam kavaleri olmuş azərbaycanlıların İkinci Dünya müharibəsi illərində müdafiə və azad edilməsində iştirak etdikləri ərazilərdə xatirələri əbədiləşdirilsin: "Bu məqsədlə təşkilatımız MDB Veteran Təşkilatına, Vətənin müdafiəsi zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi Komissiyasına, Azərbaycanın MDB ölkələrindəki səfirliklərinə müraciətlər göndərib. Eyni zamanda, Qələbənin yubiley ildönümü ilə əlaqədar veteranlar təşkilatımız bir sıra tədbirlər, o cümlədən Azərbaycanın faşizmin məğlubiyyətinə verdiyi töhfələrə həsr olunmuş beynəlxalq konfrans keçirməyi planlaşdırır.

Onu da qeyd edim ki, Qələbəyə Azərbaycan nefti həlledici töhfə verib. Bakı neftçiləri müharibə illərində gecə-gündüz çalışırdılar, cəbhəni fasiləsiz neftlə təmin edirdilər. Ordunun ehtiyacları üçün yanacaq və sürtkü yağlarının 85%-ni Azərbaycan təmin edib. Respublikada əfsanəvi "Katyuşa"da daxil olmaqla 123 növ silah istehsal edən bir sıra müdafiə müəssisələri yerləşdirildi. Respublika cəbhəni qida ilə də təmin edirdi. Azərbaycan alimləri ümumi işə fəal töhfə vermişlər. Xüsusilə akademik Yusif Məmmədəliyev yüksək oktanlı aviasiya yanacağının, donmayan yağların istehsalını təklif etmiş və həyata keçirib ki, bu da düşmənin aviasiyası üzərində keyfiyyət üstünlüyünü təmin edib.

Müharibə illərində Azərbaycanda 45 hospital fəaliyyət göstərib, 440 min cəbhəçini sağaldıb və xidmətə qaytarıblar. Bakıda üç xatirə məzarı var, burada Bakı şəhərindəki hospitallarda döyüş xəsarətlərindən ölən döyüşçülər istirahət edir. Bütün qəbirlər baxımlıdır. Hər il mayın 9-da memoriallarda təntənəli tədbirlər keçirilir.

Ümumiyyətlə, Azərbaycanda 1941-1945-ci illər müharibəsinə həsr olunmuş xatirə məzarlarına və abidələrə böyük qayğı göstərilir. Belə abidələr ölkənin bütün rayonlarında ucaldılıb. Onlar yerli hakimiyyət orqanları, gənclər təşkilatlarının üzvləri və qazilər tərəfindən qorunur və abadlaşdırılır.

Təəssüflər olsun ki, Azərbaycanda keçmiş cəbhəçilərin sayı azdır - cəmi 18 nəfər. Ənənəyə görə, hər il mayın 9-da müxtəlif ictimai təşkilatların nümayəndələri və könüllülər veteranları evlərində ziyarət edəcək, təbrik edəcək, hədiyyələr təqdim edəcəklər. Dövlət səviyyəsində hər il 9 May ərəfəsində müharibə iştirakçılarının veteranlarına maddi yardım göstərilir. Qeyd etmək istəyirəm ki, bu, təkcə İkinci Dünya müharibəsi veteranlarına deyil, Qarabağ müharibəsi veteranlarına da aiddir".

(Əvvəli 1-ci səhifədə)

*Tibb xidməti*

# Tarix xatırladıqca yaşadılır...

Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Yetər Mustafayeva 1982-ci ildə Gəncə şəhərində anadan olub. 2000-2002-ci illərdə Gəncə Tibb Texnikumunda təhsil alıb. 2002-2004-cü illərdə tibb bacısı kimi Gəncə hospitalında 2004-cü ildən isə Baş Klinik Hospitalında xidmət edir. 2015-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əməliyyat blokunun əməliyyat tibb bacısı kimi xidmətdədir.

Aprel döyüşləri zamanı Naftalana ezam olunan Yetər xanım dedi ki, Aprel döyüşləri Böyük Zəfərin başlanğıcı kimi tariximizə yazılıb. "2016-cı ilin aprelində Azərbaycan Ordusu tariximizə şanlı bir səhifə yazdı. Bu döyüşlər Azərbaycan Ordusunun qalib ordu olacağına, torpaqlarımızı işğaldan azad edəcəyinə əminlik döyüşləri idi. Aprel döyüşləri Azərbaycan Ordusunun peşəkarlığını və yüksək döyüş hazırlığını da təsdiqlədi".

Vətən müharibəsi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış qəhrəmanlıq salnaməsidir. Bu müharibədə yalnız hərbi qulluqçular deyil, arxa cəbhədə çalışan tibb işçiləri də böyük fədakarlıqlar göstərdilər. Tibb işçiləri yaralı əsgərlərin həyatını xilas etmək, onlara ilk tibbi yardım göstərmək üçün gecə-gündüz çalışdılar.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vətən müharibəsində sentyabrın 29-dan oktyabrın 7-nə kimi döyüş bölgəsinə yaxın ərazidə fəaliyyət göstərən hospitalında böyük cəsarət və fədakarlıq nümayiş etdirib. Yetər xanım dedi ki, müharibənin getdiyi o günlərdə tibb bacıları döyüş meydanlarında, səyyar hospitallarda, hospitallarda və xəstəxanalarda yorulmadan çalışırdılar. Onların bu fədakarlığı unudulmazdır".



Yetər xanım danışdıqca gözləri dolur, nəfəsi sinəsinə sığmırdı. Sözləri titrəyir, yaddaşının dərinliyindən qopan hər xatirə onu bir anlıq müharibənin getdiyi günlərə qaytarırdı.

Yaralı əsgərlərin qayğısına qalmaq, yeni həyat mübarizələri və yeni ağrılarla qarşılaşmaq bir tibb bacısı üçün həm fiziki, həm də mənəvi baxımdan çox ağır bir dövr idi.

Bəzən yaşadıqlarından çox sarsılırdı da. Belə günlərin birində ona zəng vurub hal-əhval tutan həyat yoldaşı ilə aralarında gedən söhbəti bizimlə kövrəkliklə bölüşdü. "Həmən gün düşmən hospitalı bombalamışdı. Çox həyəcanlı anlar yaşamışdıq. O anda düşünmüşdüm ki, hər an hər şey baş verə bilər. Və mən halallıq almalıyam. Sözsüz ki, baş verənlər haqqında həyat yoldaşıma heç nə deməmişdim. Sadəcə əgər geri dönməsəm, səndən hər şey üçün halallıq istəyirəm dedim".

Tibb bacısı dedi ki, telefonun digər tərəfinə bir anlıq sükut çökdü. Bir neçə saniyəlik sükutdan sonra səmimi bir səs gəldi:

- Yetər, hər şey yaxşı olacaq. Biz qalib gələcəyik. Başqa heç nə düşünmə. Nə olursa-olsun, həmişə yanında olacağam.

Yetər xanımın danışdığı bu hadisə təkcə tibb bacısının deyil, bütün döyüşənlərin həyatında mühüm bir anı göz önünə sərir.

Boya-başa çatdığı Gəncəyə düşmənin raket zərbələri vurması, dinc əhalinin başına gələn müsibətləri bu vətənpərvər xanım ürəyinin dərinliklərində hiss edib. Hər raket zərbəsi, hər uçan bina, hər şəhid xəbəri onun ruhunda sağalmaz izlər buraxıb.

- Biz müharibəni təkcə cəbhədə deyil, şəhərimizin küçələrində də yaşadıq. Uşaqların, qadınların, yaşlıların qana boyandığını gördük... - baş çavuş Yetər Mustafayeva qəhərlə belə dedi.

Yetər xanım göz yaşlarını saxlaya bilmədi. O anları xatırlamaq ağır olsa da, unutmaq da mümkün deyil...

O günlərdə Yetər xanımın qardaşı həyat yoldaşı ilə Gəncədən Bakıya gəlir, iki azyaşlı övladını onlara tapşıraraq doğma şəhərlərini tərk etməyəcəklərini bildirib geri qayıdıblar.

Yetər xanımın baxışları uzaqlara zillənmişdi. Həmin günlərin acısı onun xatirələrindədi: Vətən müharibəsi bitsə də, Gəncənin yaraları hələ də qanayırdı. O, ömrü boyu bu izləri qəlbində daşıyacaqdı...

Vətən müharibəsi başa çatdı. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu ərazi bütövlüyümüzü bərpa etdi. Yetər kimi yüzlərlə tibb bacısı qələbənin sevincini göz yaşları içində qarşıladı. Onlar hərbi formalarını geyindikləri ilk gündən bunun adi bir paltar olmadığını, həm də böyük bir məsuliyyətin, fədakarlığın və Vətənə xidmətin rəmzini daşıdıqlarını hiss edirdilər.

Bu gün Yetər xanım iki övladını Vətənə layiqli vətəndaş kimi formalaşdırır. O, yay məzuniyyətində ailəsi ilə birlikdə Füzuli, Hadrut, Xankəndi və Şuşaya gedib. Şəhidlərimizi Şuşada Gövhərağa məscidində də xatırlayıb, döyüşlərdə yaralananlara cansağlığı arzulayıb.

Yetər xanım, həmçinin antiterror əməliyyatlarında da öz vəzifə borcunu ləyaqətlə yerinə yetirib.

Döyüş əməliyyatlarında tibb işçilərinin xidməti xalqımızın yaddaşında da, tarixdə də əbədi olaraq qalacaq. Onların fədakarlığı, cəsarəti və insanlığı hər zaman hörmətlə xatırlanacaq. Elə igidlikləri də...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Sağlam bədəndə sağlam ruh olar*

# İdmançılarımızı tanıyaq



**Əsgər Natiq Kərimzadə**

*Boks üzrə Avropa çempionatının ikincisi*

"Hərbi xidmət mənə hərbi biliklər öyrətməklə yanaşı, müsbət vərdişlər də aşılayır. Bu vərdişlərdən mənim üçün ən önəmlisi isə idmandır. Hərbi xidmətə gəlməmişdən də idmanla məşğul olurdum. Burada fiziki hazırlığımı daha da yüksəltmişəm. Özümü daha gümrah, sağlam və enerjili hiss edirəm. Bunlar da xidmətimin nümunəvi və uğurlu təşkilində mühüm rol oynayır".



**Əsgər Rəhim Ağayev**

*Uşu-sando üzrə Respublika üçüncüsü*

"Hər bir hərbçinin fiziki hazırlıqlı olması vacibdir. Çünki onun döyüş qabiliyyətinin yüksək olması, verilən əmrlərin vaxtında və düzgün icra etməsi məhz fiziki cəhətdən hazırlıqlı olmasından asılıdır. Komandirlərimizin nəzarəti ilə hərbi hissəmizdəki müasir avadanlıqlarla təchiz olunan qapalı idman zalından, geniş idman meydançasından istifadə edirik. Nəticədə biz həm fiziki, həm də mənəvi cəhətdən güclü, Vətənin müdafiəsinə tam hazır olan əsgərlər kimi yetişirik".

**"Azərbaycan Ordusu"**

# Adada yerləşən ən böyük göl – Nettillinq



Baffin torpağında yerləşən Nettillinq gölü, ilin çox vaxtı buzla örtülü olsa da, dünyada adada yerləşən ən böyük göldür.

Nettillinq - planetin ən böyük ada gölü, Nunavut əyalətinin ən böyüyü, Kanadada 11-ci və dünyanın 30-cu ən böyük gölüdür. Səthinin sahəsi 5050 km², ümumi sahəsi isə 5542 km² təşkil edir. Maksimum uzunluğu 123 km-dir.

Nettillinq, Kanadanın şimal-şərqində, Nunavut əyalətinin Kikiktani regionunun bir hissəsi olan Baffin adasının cənub hissəsində yerləşir. Göl dəniz səviyyəsindən 30 metr yüksəklikdə, Auyuittuq Milli Parkından təxminən 110 km cənub-qərbdə yerləşir. Göl əsasən Amacuq gölündən, bir sıra göl və çaylardan qidalanır. Şərqində üç buxta yerləşir (Miraj, Kamsel və Burvoş), gölün bu hissəsi çox dayazdır və çoxlu ada ilə əhatə olunmuşdur. Qərb hissəsi isə nisbətən dərindir və adaları yoxdur. Göldən qərbə Foks körfəzinə, ilin böyük qismi buzla örtülü olan kiçik Kukcuak çayı axır.

Gölün faunası olduqca zəifdir. Gölün sularında bu sərt şəraitdə yalnız üç balıq növü yaşaya bilir. Nettillinq və Amacuak arasında olan ərazidə Karibu maralları yaşayır. Nettillinq gölü quşlar üçün mühüm köç ərazisi hesab edilən Böyük Kukcuak düzənliyinin bir hissəsidir. Bura, həm də dünyanın ən böyük qaz koloniyasına ev sahibliyi edir.

Göldə ilk olan avropalı 1883-cü ildə Frans Boas olub.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



### Ukrayna Almaniyadan yeni hərbi yardım paketi alacaq

Ukrayna Almaniyadan yeni hərbi yardım paketi alacaq. Bu paketə Kiyevin uzun müddətdir ki, xahiş etdiyi mühüm silahlar daxil olacaq.

"The Guardian" xəbər verir ki, bu barədə Almaniyanın müdafiə naziri Boris Pistorius bildirib. Almaniya daha dörd "IRIS-T" hava hücumundan müdafiə sistemini raketlərlə və "Patriot" sistemləri üçün daha 30 raketlə təmin edəcək.

O, həmçinin bildirib ki, Avropa liderləri Ukraynanın lisenziya əsasında yerli raket istehsal etmək istəyini müzakirə edəcəklər.

Bundesverin məlumatına görə, paketə digər silah-sursatla yanaşı, 15 "Leopard 1" əsas döyüş tankı, pilotsuz kəşfiyyat təyyarəsi və əlavə 100 min artilleriya mərmisi də daxildir.

Bütün paketə 300 idarə olunan raketi olan 4 "IRIS-T" hava hücumundan müdafiə raket sistemi, 15 "Leopard 1A5" əsas döyüş tankı, 300 pilotsuz kəşfiyyat uçuş aparatı, 120 MANPADS, 14 artilleriya sistemi, 100 yer müşahidə radarı, 30 "Patriot" idarəolunan raketi, 5 döyüş maşını və 100 min ədəd patron daxildir.

Pistorius, həmçinin yaxın illərdə yeni "Iris-T" sistemlərinin, eləcə də 1100 əlavə yerüstü müşahidə radarlarının tədarükü perspektivindən danışıb.

Almaniyanın müdafiə nazirinə Ukraynada Avropa qoşunlarını da daxil edə biləcək dəstək qüvvələrinin yaradılması planları barədə də sual verilib, lakin o, "bu cür məsələləri müzakirə etməməyə" və "ağıllı və iddialı" qalmağa üstünlük verəcəyini bildirib. O əlavə edib: "Biz lazım olan yerə çatmağın bir yolunu tapacağıq, lakin o vaxta qədər bunu ictimai şəkildə deyil, daxildə müzakirə etmək daha yaxşıdır".

### Amerikalı senator: İran altı nüvə bombası hazırlamağa yaxındır



Respublikaçı senator Lindsi Qremin iddiasına görə, İranda altı ədəd atom bombası hazırlamaq üçün yetərincə zənginləşdirilmiş uran var.

Lindsi Qrem bunu "Fox News" telekanalına müsahibəsində deyib.

"Tehran altı nüvə bombası hazırlamaq üçün kifayət qədər zənginləşdirilmiş urana sahibdir. Onlar nüvə silahından istifadə edərək ilk növbədə İsrailə, sonra isə bizə hücum edəcəklər", - deyə respublikaçı senator bildirib.

Lindsi Qrem iddiası ilə bağlı heç bir sübut təqdim etməyib və məlumatın mənbəyini açıqlamayıb.

Bir müddət öncə ABŞ Silahlı Qüvvələrinin mərkəzi komandanlığının rəhbəri general Maykl Kurilla Tehranın nüvə silahı hazırlamaq barədə qərar qəbul etmədiyini söyləyib. Yanvarın ortalarında İran Prezidenti Məsud Pezeşkian "NBC News" telekanalına Tehranın nüvə silahı hazırlamaq məqsədi güdmədiyini açıqlayıb.

Bu arada, martın 7-də ABŞ Prezidenti Donald Tramp İranın ali lideri Ayətullah Əli Xameneiyə nüvə proqramı ilə bağlı danışıqlar aparmağı təklif edib. Tərəflər danışıqların birinci raundunu aprelin 12-də Omanda keçirmək barədə razılığa gəliblər.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Gimnaziada: Azərbaycan paraüzgüçüsü bürünc medal qazanıb




Serbiyanın ev sahibliyi etdiyi Gimnaziada İdman Oyunlarında paraüzgüçülük yarışında Azərbaycan təmsilçisi Səlim Məmmədov uğurla çıxış edib.

S12 kateqoriyasında çıxış edən idmançı 200 metr məsafəyə qarışıq üzmə üsulu yarışında finişə 3:10.69 saniyə nəticə ilə üçüncü çatıb və bürünc medal qazanıb.

### Gimnaziada: Azərbaycan millisinin 10 boksçusu döyüşünü qələbə ilə başa vurub



Serbiyanın Zlatibor şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında Azərbaycan millisinin 10 boksçusu yarışın ilk gününü qələbə ilə başa vurub.

Yığmanın heyətində Babək Abdullayev (40 kiloqram) Zaxari Kovala (Ukrayna), Azad Məmmədli (44 kiloqram) İvan Burlakaya (Ukrayna), İsmayıl Aslanlı (50 kiloqram) Orest Petrovskiyə (Ukrayna), Yusif Əli (52 kiloqram) Aleksandros Konstantinouya (Kipr) və Kəmalə Həsənova (54 kiloqram) Ana Santos Velosoya (Braziliya) qalib gələrək, yarımfinala vəsiqə qazanıblar. Onlar qələbə sayəsində özləri üçün azı bürünc medalı da təmin ediblər.

Aysan Miriyeva (46 kiloqram) yarımfinalda Santos Silvanı (Braziliya), Leyla Mahmudlu (51 kiloqram) Esmanur Kahramanı (Türkiyə), Nurlan Müseyibli (66 kiloqram) Qleb Zlenkoni (Ukrayna), Zirəddin Rüstəmli (70 kiloqram) Draqan Todoroviçi (Serbiya) və Mehran Rəsulov (75 kiloqram) Rijon Rumba Limanı (Nepal) məğlub edərək, həlledici raundda vəsiqə qazanıb.

Nəriman Əli (54 kiloqram) isə yarımfinalda məğlub olaraq, Gimnaziadanı bürünc medalla başa vurub.

### Azərbaycan taekvondoçuları Gimnaziadada daha 10 medal qazanıb



Serbiyanın Zlatibor şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında taekvondo yarışları başa çatıb.

Azərbaycan millisi yarışın ikinci günündə 9 qızıl və 1 gümüş medala sahib çıxıb.

Komandanın heyətində Fidan Muxtarzadə (29 kiloqram), Tapdıq Quluzadə (33 kiloqram), Musa Süleymanlı (37 kiloqram), İnci Oruczadə (37 kiloqram), Ədiş Cəlilov (49 kiloqram), Elmir Səlimov (53 kiloqram), Eda Eren (55 kiloqram), Rəsul Cavadzadə (61 kiloqram), Fuad Həsənov (+65 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Elmira Bayrak (41 kiloqram) isə gümüş mükafata yiyələnib.

Bununla da millimiz yarışı 10 qızıl, 3 gümüş və 3 bürünc olmaqla, ümumilikdə 16 medalla başa vurub.

Gizir Əliyev Samir Əbülfət oğluna verilmiş SQ № 0024209 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mahmudov Möhübbət Bünyad oğluna verilmiş AD № 0046505 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Qələmov İsmayıl Kərim oğluna verilmiş MV № 136868 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Rəşid HÜSEYNOV

Lisenziya № 361
Sifariş № 145
Nüsxə 3663